**Kürəyində min illərin qüssə-qəmi, ürəyində min oğulun nakam ömrünün ağrısı olan Vətənim. Bu gün o acılarının əvəzidir sənin yaşadığın azadlıq sevinci. Qanlı-qadalı günlərin ardınca gələn al-əlvan bahardı sanki.**

# Fevral döyüşlərinin beş qəhrəmanı...
















Hər dəfə fevral ayı gələndə acımız təkrarlanırdı. 1992-ci il fevralın 17-də törədilmiş "Qaradağlı faciəsi", ardınca törədilən "Xocalı soyqırımı" bir xalqın yaşaya biləcəyi ən böyük müsibət idi. İllərdən sonra Ermənistan yenə fevral günü Azərbaycan torpaqlarına göz dikdi. 2017-ci il fevral ayının 24-dən 25-nə keçən gecə Ermənistan silahlı qüvvələri 2016-cı il aprelin 1-dən 5-nə qədər davam edən döyüşlərdə Azərbaycan ordusunun azad etdiyi Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəklikləri, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi istiqamətində yenidən təxribat törətməyə başladılar. Ermənilərin əsas niyyəti Xocavənd rayonunda yerləşən Nərgiztəpə yüksəkliyini ələ keçirmək idi. Ermənilər o yüksəkliyi ələ keçirib Beyləqan, Füzuli, Ağdam, Quzanlı, Ağcabədi yolunu kəsib, həmin ərazini nəzarətə götürmək istəyirdilər. Lakin onların arzularını Azərbaycan ordusu ürəyində qoydu. Düşməni layiqli cavabı ilə geri çəkilməyə məcbur edən ordumuzun 5 hərbi qulluqçusu şəhid oldu. Mayor Abdullayev Aqşin İsmayıl oğlu, baş-leytenant Nəzərov Şahlar Yaşar oğlu, baş-leytenant Həşimli Tural Əbdül oğlu, baş-çavuş Qədimov Zülfü Rəhim oğlu və əsgər Cəfərov Zakir Nazim oğlu apreldə şəhid olan şəhidlərin və Xocalı və Qaradağlıda qətlə yetirilən günahsızların qisasını aldılar və azad olan torpaqlarımızı əldən verməyərək yeni bir qəhrəmanlıq salnaməsinə imza atdılar. Gəlin bu beş qəhrəmanı daha yaxından tanıyaq.

Mayor Abdullayev Aqşin İsmayıl oğlu. Qəhrəmanımız 1982-ci il oktyabrın 1-də Şəki şəhərinin Kiş kəndində İsmayıl bəy və Dursun xanımın ailəsində dünyaya gəlmişdi. 1988-ci ildə 4 N - li Kiş kənd tam orta məktəbində təhsil almağa başlamışdı. Məktəbi bitirdikdən sonra vətən sevgisi onun yolunu Bakı Ali Hərbi məktəbindən salmışdı. Ömrünü vətənə həsr edən Aqşin 2003-cü ildə TTM - də təhsil almış, 2003-cü ildə leytenant, 2005-ci ildə baş leytenant, 2009-cu ildə kapitan, 2013-cü ildə mayor hərbi rütbəsi almışdı. Aprel döyüşlərinin də qəhrəman döyüşçülərindən olan Aqşin bir çox medal və fəxri fərmanla təltif edilmişdi. 2017 - ci ildə Fevral döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdu.

Ailəli idi, 3 övladı əmanət qalıb.

Nəzərov Şahlar Yaşar oğlu 1990-cı il aprelin 25 - də Yardımlı rayonunun Peştəsər kəndində dünyaya gəlib. O, 1996-cı ildə Peştəsər kənd məktəbinə gedib. IX sinfi bitirdikdən sonra 2005-ci ildə C. Naxçıvanski adına Hərbi liseydə təhsil alıb. 2008-ci ildə Heydər Əliyev adına Ali Hərbi məktəbə daxil olub. 2012-ci ildə TTM - nin kursunu keçib. Daha sonra Türkiyədə 3 aylıq təlim kursu keçib. Ş. Nəzərov 2013-cü ildə kəşfiyyat bölüyü, sonra kəşfiyyat tağım komandiri, 2016-cı ildə kəşfiyyat bölüyünün komandiri vəzifəsində çalışıb. Bir çox uğurlu əməliyyata imza atıb. Son döyüşü isə Fevral döyüşləri olub.

Ailəli olan şəhidimiz şəhadətə ucaldıqdan bir neçə gün sonra əkiz oğul övladları dünyaya gəlib və əkizlərdən birinə atasının adı verilib.

Haşımlı Tural Əbdül oğlu 1988 - ci il 27 dekabrda NMR - nın Ordubad şəhərində anadan olmuşdu. 1996-cı ildə Rahim Babayev adına məktəbə qədəm qoymuşdu. O, IX sinfi bitirdikdən sonra 2004-cü ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuşdu. Daha sonra Heydər Əliyev adına Hərbi Akademiyada oxumuşdu. Bakıda, Ağcəbədidə, Lənkəranda xidmət edən qəhrəmanın sonuncu xidmət etdiyi yer Xocavənd olmuşdu. Üç il Xocavənddə xidmət edən qəhrəman Fevral döyüşləri zamanı digər yoldaşları kimi qəhrəmancasına şəhadətə yüksəlmişdi.

Qısa müddət öncə ailə quran Turalın şəhadətə ucaldıqdan sonra oğul övladı dünyaya gəlib. İndi şəhid oğlu atasının adını qürurla daşıyır.

Qədimov Zülfü Rəhim oğlu da vətəni bizə əmanət qoyan qəhrəmanlardan biridir. O, 1988-ci ilin 16 iyununda Ağdam rayonunun Nərzili kəndində anadan olub. Ağdam işğal olunan zaman Zülfü də yurdundan didərgin düşüb. 1995-ci ildə Ağdamın Ergi kənd orta məktəbində təhsil alıb. Təhsilini bitirdikdən sonra universitetə qəbul olsa da o imtina edib hərbi xidmətə gedib. Xidmətini başa vurduqdan sonra müddətdən artıq hərbi xidmətə başlayıb. XTQ - nin kursunu keçib və Xocavənddə xidmət edib. Xocavənd uğrunda can verən qəhrəmanlardan biri kimi tarixdə iz salıb.

Cəfərov Zakir Nazim oğlu 1993-cü il mayın 3-də Bakı şəhərində anadan olmuşdu. 2002-ci ildə Bakı şəhəri Nizami rayonunda yerləşən 201 N - li məktəbdə təhsil almağa başlamışdı. O, təhsilini 109 N - li məktəbdə davam etmişdi. 2011-ci ildə IX sinfi bitirdikdən sonra Azərbaycan Memarlıq və İnşaat Universitetin nəzdində "Avtomobil yolları və aerodromların tikintisi və istismarı" fakultəsini oxumuşdu. 2016-cı il yanvarın 7-də hərbi xidmətə yola düşmüşdü. Aprel döyüşləri zamanı Zakir də qəhrəmanlıq göstərən oğullardan olmuşdu. Onun da ömür yolu Xocavənd torpağında şəhid kimi nöqtələnmiş, adı qəhrəman əsgər kimi tarixin yaddaşına həkk olunmuşdu.

Vətənin əsil vətəndaşı və vətən daşı olan beş qəhrəman xalq olaraq bizə şəhidlərin əmanəti olan torpaqlara necə sahib çıxmaq gərəkdiyini bir daha təkrarlatdı. Hər beş qəhrəman şəhid olduqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə " Şücaətə görə" medalı ilə təltif ediliblər.

**BEŞ İGİD**

*Beş igid birlikdə bir tarix yazıb,*
*Canın sipər etdi torpaq yolunda.*
*Biri digərinin dadına çatdı,*
*Dostu can tapşırdı dostun qolunda.*

*Torpaq doya-doya durmadan içdi,*
*Aqşinin, Turalın, Şahların qanın.*
*Bir an düşünmədi Zülfü və Zakir,*
*Onlar fəda etdi vətənə canın.*

*İndi o tarixdən neçə il keçib,*
*Ancaq unudulmur həmin şanlı gün.*
*Vətənin, torpağın keşiyin çəkdi,*
*Gözünə dik baxdı onlar ölümün.*

*Onlar can verdiyi hər qarış torpaq,*
*Daha azadlığın qoynunda uyur.*
*Bütün şəhidlərin müqəddəs ruhu,*
*Azadlıq sevincin cənnətdə duyur.*

***Manya SƏXAVƏTQIZI***